## “MOLLA NƏSRƏDDİN” JURNALI

Həftəlik, illüstrasiyalı ilk Azərbaycan satirik jurnalı.

Birinci nömrəsi 1906-cı il aprelin 7-də Tiflisdə “Qeyrət” mətbəəsində çapdan çıxmışdır. Jurnal 1906-1917-ci illərdə Tiflisdə, 1921-ci ildə Təbrizdə, 1922-1931-ci illərdə Bakıda nəşr olunmuşdur. Müəyyən fasilələrlə 25 il fəaliyyət göstərən “Molla Nəsrəddin” jurnalının 741 nömrəsi (Tiflisdə 370, Təbrizdə 8, Bakıda 363) çap edilmişdir. Jurnalın redaktoru və naşiri böyük demokrat Cəlil Məmmədquluzadə idi. 1910-1911-ci illərdə Məhəmmədəli Sidqizadə (Məhəmmədəli Sidqi) müvəqqəti müdir, Əliqulu Nəcəfov (Qəmküsar) ikinci redaktor vəzifələrini icra etmişlər. 7 fevral 1925-ci ildən (№6) sonuncu nömrəyədək (yanvar, 1931 №2) jurnal “Heyəti-təhririyyə” imzası ilə çıxmışdır.

“Molla Nəsrəddin” in ilk sayı aşağıdakı proqramla işıq üzü görmüşdür: 1.Məqalələr. 2.Kəskin tənqidlər. 3.Felyetonlar. 4.Məzhəki şeirlər. 5. Məzəli teleqramlar. 6. Satirik hekayələr. 7.Lətifələr. 8.Poçt qutusu. 9.Məzhəki elanlar. 10.Xüsusi elanlar. 11.Karikatura və illüstrasiyalar.

“Zəmanənin özünün yaratdığı” “Molla Nəsrəddin” jurnalı Azərbaycan ədəbi-ictimai fikrinə yeni üslub, satirik publisistika, şeir və nəsr janrlarını gətirdi. C.Məmmədquluzadənin təşkilatçılığı ilə dövrün tanınmış şair, yazıçı və jurnalistləri - Ö.F.Nemanzadə, M.Ə.Sabir, Ə.Haqverdiyev, Ə.Qəmküsar, Ə.Nəzmi, M.S.Ordubadi, Ə.Razi, M.Ə.Möcüz, B.Abbaszadə və b. O.Şmerlinq, İ.Rotter, Ə.Əzimzadə kimi karikatura ustalarının birgə fəaliyyəti “Molla Nəsrəddin”i satirik mətbuatın zirvəsinə ucaldaraq ədəbi məktəb səviyyəsinə çatdırmışdır.

“Molla Nəsrəddin”in “Sizi deyib gəlmişəm” adlı proqram məqaləsi jurnalın əsas məqsəd və məramını xalqa çatdırdı və onun gələcək fəaliyyətinin istiqamətlərini müəyyənləşdirdi.

“Molla Nəsrəddin” jurnalı 25 illik fəaliyyəti dövründə zülm və istibdada qarşı çıxaraq mütləqiyyəti, çar-üsul idarəsini, hakim təbəqələrin “parçala və hökm sür” müstəmləkəçilik siyasətini, mövhumat, xurafat, cəhalət, dini fanatizm, qadın hüquqsuzluğu,elm və təhsil kimi aktual məsələləri jurnalın əsas mövzusuna çevirmiş və satira atəşinə tutmuşdur.

Jurnalın 1906-cı ilin onuncu nömrəsində “İdarəyə göndərilən məktub və məqalələr açıq türk (ana dilində) dilində yazılmış olmasalar, çap olunmayacaqlar” epiqrafı “Molla Nəsrəddin”in ana dilimizin təəssübkeşliyinin yüksək təzahürü idi.

“Molla Nəsrəddin” ədəbi cəbhəsində birləşən mollanəsrəddinçilərin yaradıcılığının aparıcı mövzusu, ana xətti dövrün ağrılı, həllini gözləyən problemləri idi. Jurnal bu məsələləri müxtəlif janrlı yazılarla- felyeton, satirik şeir (taziyanə, dəyənək, qırmanc və s.), teleqraf xəbərləri, hesab məsələləri, lüğətlər, elanlar, atalar sözləri, bayatılar, tapmacalar...və kəskin satirik karikaturalar vasitəsilə oxuculara çatdırırdı.

“Molla Nəsrəddin” jurnalı 1921-ci ildən fəaliyyətini Təbriz şəhərində davam etdirmişdir.1921-ci ilin 20 fevralında jurnalın birinci sayı çapdan çıxmışdır. Satirik formasına, ictimai məzmununa, sadə, anlaşıqlı dilinə, tərtibinə, karikaturalarına görə “Molla Nəsrəddin” jurnalı Təbrizdə böyük əks-sədaya səbəb olmuşdur. Üç ay ərzində

Təbrizdə 8 sayı nəşr olunan "Molla Nəsrəddin" jurnalı İranın, xüsusən də Cənubi Azərbaycanın konkret tarixi şəraitdəki əsas problemlərini əhatə edə bilmişdir.

1922-1931-ci illərdə jurnal Bakıda nəşr edilmişdir.

Azərbaycan K(b)P MK-nın 9 aprel 1929-cu il tarixli plenumunda "Dini xurafatla mübarizədə Respublika Partiya Təşkilatının vəzifələri haqqında" məsələ müzakirə olunmuş və qətnaməyə "Molla Nəsrəddin" jurnalının "din əleyhinə oxunaqlı, kütləvi, ucuz jurnal kimi yenidən təşkil edilməsinə" dair ayrıca bir təklif daxil edilmişdir. Jurnalın əleyhdarları "Molla Nəsrəddin"in Allahsızlar İttifaqının orqanı kimi nəşr edilməsini qərarlaşdırsalar da, C.Məmmədquluzadə Azərbaycan KP MK katibliyinə məktub yazaraq "Molla Nəsrəddin"in "Allahsız" deyil, məhz 25 ili tamam olana kimi öz adı ilə çıxmasına icazə istəmişdir (8 fevral 1930).

"Molla Nəsrəddin" Mübariz Allahsızlar İttifaqının orqanına çevrilsə də, "Allahsız" adı ilə nəşr edilməmişdir. 1931-ci ilin yanvar ayında 2 sayı çapdan çıxdıqdan sonra fəaliyyətini dayandırmışdır.